# “Aşıq Ələsgər və Azərbaycan folkloru” mövzusunda yaradıcılıq müsabiqəsinin keçirilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin əmri

Azərbaycan Respublikası təhsil nazirinin 26.07.2021-ci il tarixli F-372 nömrəli əmri ilə təsdiq olunmuş “Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planı”nın icrasını təmin etmək məqsədilə “Bakı Şəhəri üzrə Təhsil İdarəsi haqqında” Əsasnamənin 15.6-cı bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Bakı şəhəri ümumi təhsil müəssisələrinin VII-X sinif şagirdləri arasında 2021-ci ilin oktyabr-noyabr aylarında “Aşıq Ələsgər və Azərbaycan folkloru” mövzusunda yaradıcılıq müsabiqəsi keçirilsin.

2. Müsabiqənin Əsasnaməsi və Təşkilat Komitəsinin tərkibi təsdiq edilsin (əlavə olunur).

3. Ümumi təhsil müəssisələrinin direktorları təqdim olunan Əsasnaməyə uyğun olaraq müsabiqənin məktəb mərhələsinin keçirilməsini təmin etsinlər və qalib şagirdlər barədə məlumatı Təşkilat Komitəsinə təqdim etsinlər.

4. İnkişaf layihələri sektoru (G.Qurbanova) və Ümumi təhsil sektoru (F.Babayev) müsabiqənin yüksək səviyyədə keçirilməsini təmin etsinlər.

5. Maliyyə və mühasibatlıq sektoru (E.Mehdiyeva) müsabiqənin icrasından irəli gələn maliyyə məsələlərini həll etsin.

6. Təminat və təchizat sektoru (S.Mahmudov) müsabiqənin icrasından irəli gələn təchizat məsələlərini həll etsin.

7. İctimaiyyətlə əlaqələr sektoru (B.Məmmədov) əmrin və Əsasnamənin İdarənin internet saytında yerləşdirilməsini və müsabiqənin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasını təmin etsin.

8. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

Əmrin icrasına nəzarət müdir müavini Hüseyn Əsgərova həvalə olunsun.

**Əsas:** Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 30.07.2021-ci il tarixli F-171 nömrəli əmri ilə təsdiq edilmiş “Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi” ilə bağlı Tədbirlər Planı.

***Mehriban Vəliyeva,***

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri***

***7 oktyabr 2021-ci il***

***№ F-214***

**Əsasnamə**